# Naxçıvanın elmi mühitində Cənubi Azərbaycan mövzusu

**Sahab Əliyeva**
AMEA Naxçıvan Bölməsi. Azərbaycan.
E-mail: sahabaliyeva89@gmail.com

**Annotasiya.** Məqalədə Naxçıvanın elmi mühitində Cənubi Azərbaycan mövzusu hərtərəfli araşdırılmış, bu istiqamətdə qələmə alınan elmi məqalə, kitab və monoqrafiyalar tədqiqata cəlb olunmuşdur. Qeyd olunmuşdur ki, Naxçıvanın elmi mühitində Cənubi Azərbaycan mövzusundakı araşdırmaların əsas istiqaməti cənublu ədəbi simaların mühiti, həyatı və ədəbi irsi, Cənubi Azərbaycanda anadilli mətbuat, Azərbaycan dilinin cənub qoluna məxsus şivələr, toponimlər və onların müqayisəli təhlili, Cənubi Azərbaycan ədəbiyyatının tədrisi məsələlərinə yönəldilmiş, bir sıra əhəmiyyətli elmi nəticələr əldə edilmişdir. Naxçıvan – Cənubi Azərbaycan arasında əlaqələrin inkişafı da elmi mühitə öz təsirini göstərmiş, çoxsaylı elmi məqalələr, kitab və monoqrafiyalar qələmə alınmış, elm adamlarımızın bu istiqamətdəki fəaliyyəti sayəsində əlaqələrimiz daha da genişlənmişdir. Bu istiqamətdə aparılan tədqiqat işlərində tutarlı elmi təhlillər əsasında Cənubi Azərbaycan filologiyasının bir sıra məsələləri tədqiq olunmuş, ədəbiyyat, mətbuat və sənətşünaslıq tariximiz milli-mənəvi bütövlük, vahid Azərbaycan ideyası işığında qələmə alınan araşdırmalarla zənginləşdirilmişdir.
**Açar sözlər:** Naxçıvan, Cənubi Azərbaycan, elmi mühit, milli-mənəvi bütövlük, azərbaycançılıq

**Məqalə tarixçəsi:** göndərilib – 03.02.2021; qəbul edilib – 16.02.2021

# The topic of South Azerbaijan in the scientific milieu of Nakhchivan

**Sahab Aliyeva**
Nakhchivan Branch of ANAS. Azerbaijan.
E-mail: sahabaliyeva89@gmail.com

**Abstract.** The paper comprehensively researches the topic of South Azerbaijan in the scientific milieu of Nakhchivan; scientific articles, books, and monographs created in this direction are involved in the research. It was noted that the main directions of research on South Azerbaijan in the scientific environment of Nakhchivan are the environment, life and literary heritage of southern literary figures, native language press in South Azerbaijan, dialects of southern branch of the Azerbaijani language, toponyms, and their comparative analysis, teaching of South Azerbaijani literature. Significant scientific results have been obtained. The development of relations between Nakhchivan and South Azerbaijan also had an impact on the scientific environment; numerous scientific articles, books, and monographs have been created, and our relations have expanded due to the activities of our scientists in this direction. Many issues of South Azerbaijani philology have been studied based on relevant scientific analysis. Our history of literature, press, and art criticism has been enriched with research written in the light of national-spiritual integrity and the idea of united Azerbaijan.
**Keywords:** Nakhchivan, South Azerbaijan, scientific environment, national-spiritual integrity, Azerbaijanism

**Article history:** received − 03.02.2021; accepted − 16.02.2021

## Giriş / *Introduction*

Naxçıvan elmi mühitində Cənubi Azərbaycan mövzusundakı araşdırmaların əsas istiqaməti cənublu ədəbi simaların mühiti, həyatı və ədəbi irsi, Cənubi Azərbaycanda anadilli mətbuat, Azərbaycan dilinin cənub qoluna məxsus şivələr, toponimlər və onların müqayisəli təhlili, Cənubi Azərbaycan ədəbiyyatının tədrisi məsələlərinə yönəldilmiş, bir sıra əhəmiyyətli elmi nəticələr əldə edilmişdir. Cənubi Azərbaycan mövzusu istiqamətində Naxçıvan elmi mühitində tədqiqat aparan elm adamları sırasında akademik İsa Həbibbəyli, filologiya üzrə elmlər doktorları Yavuz Axundlu, Fərman Xəlilov, Hüseyn Həşimli, Qalibə Hacıyeva, Əsgər Qədimov, filologiya üzrə fəlsəfə doktorları Nəzakət İsmayılova, Xanəli Kərimli, Əli Qəhrəmanov və başqalarının xidmətləri böyükdür. Onlar həm Naxçıvanın Cənubi Azərbaycanla ədəbi-mədəni və elmi əlaqələrinin yaranmasında fəal iştirak etmiş, həm də qələmə aldıqları elmi məqalə, oçerk, kitab və monoqrafiyalarla Cənubi Azərbaycan filologiyasının bəzi problemlərinin öyrənilməsində əhəmiyyətli rol oynamışlar.

## Əsas hissə / *Main Part*

Naxçıvan elmi mühitində Cənubi Azərbaycan mövzusu istiqamətində araşdırma aparan alimlər sırasında ilk növbədə akademik İsa Həbibbəylinin elmi fəaliyyəti tədqiqata cəlb olunmalıdır. Alimin zəngin elmi irsində yer alan Cənubi Azərbaycanla bağlı bir sıra kitab və monoqrafiyaları, qəzet, jurnal, kitab və məqalələri, redaktoru olduğu və ön söz yazdığı kitabları, rəyçisi olduğu nəşrlər, elmi rəhbər, məsləhətçi və opponenti olduğu dissertasiya işləri onun elmi yaradıcılığının bu istiqamətdə tədqiqini zəruri edir. Alimin Naxçıvan Dövlət Universitetinə rəhbərlik etdiyi illərdə Naxçıvan-Cənubi Azərbaycan əlaqələrinin inkişafında müstəsna rolu olmuşdur.

M.Şəhriyarın anadan olmasının 90 illiyi ilə əlaqədar NDU-da "Şəhriyarın poeziyası və müasir ənənələr" mövzusunda konfransın keçirilməsi, 1998-ci ildə Tehranda və Təbrizdə keçirilən Şəhriyar günlərində iştirak, Şəhriyarın oğlu Hadi Behcət Təbrizi ilə NDU-da görüşün keçirilməsi, 2000-ci ildə Təbriz Universiteti ilə müxtəlif sahələrdə əməkdaşlığın yaradılması, NDU-da İran İslam İnqilabının 21-ci ildönümü ilə bağlı elmi sessiyanın keçirilməsi və İran İslam Respublikasına həsr olunan sərginin təşkil olunması, 2002-ci ildə Marağa şəhərində Nəsirəddin Tusinin 800 illik yubileyi ilə əlaqədar keçirilən beynəlxalq simpoziumda iştirak, 2006-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin nümayəndə heyətinin tərkibində İran İslam Respublikasının Qərbi Azərbaycan Ostandarlığına səfər edilməsi, 2008-ci ildə NDU-nun nümayəndə heyəti ilə bərabər Təbrizə səfər edilməsi və Təbriz Universitetinin rektoru Məhəmməd Əlavi ilə qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalanması, 2011-ci ildə NDU-da "Məhəmmədhüseyn Şəhriyarın sənət dünyası", 2012-ci ildə isə "Şəhriyar-müasir dövrün böyük şairi" mövzusunda beynəlxalq elmi konfransların keçirilməsi akademik İ.Həbibbəylinin rəhbərliyi və gərgin əməyinin sayəsində həyata keçirilmişdir. Alim eyni zamanda, elmi tədqiqatlarında Şəhriyarın yaradıcılığına geniş yer verdiyinə görə 2015-ci ildə Təbrizdə "Məhəmmədhüseyn Şəhriyar mədəniyyət ordeni" ilə təltif olunmuşdur. Onun 2000 və 2002-ci illərdə Tehranda "Şəhriyar dünyası" kitabları, 1990-cı ildə isə Bakıda "Ustad Məhəmmədhüseyn Şəhriyar" albom-monoqrafiyası çap olunmuş, M.Şəhriyarın seçilmiş əsərləri də İ.Həbibbəylinin tərtibatı ilə nəşr olunmuşdur. Onun ölkə daxilində "Ustad Məhəmmədhüseyn Şəhriyar", "Məhəmmədhüseyn Şəhriyar yaradıcılığının zirvəsi", "O tay, bu tay, fərqi yoxdu, Vətəndir!", "Şəhriyar sənətinin vüsəti və müasirliyi", "Cənubi Azərbaycanda "Molla Nəsrəddin" mühiti və mollanəsrəddinçilər", "Cəlil Məmmədquluzadənin cənublu müasirləri" kimi kitab, elmi toplu və jurnallarda dərc olunmuş məqalələri, mətbuatda çap olunan "İranda Şəhriyar günləri", "Şəhriyarın sənət dünyası", "Şəhriyar dünyası", "Ədəbi məktəb yaradan şair" kimi yazıları, habelə İranda "Varlıq" dərgisində müxtəlif illərdə dərc olunan "Azərbaycan ədəbiyyatşünaslığına qiymətli töhfə", "Böyük ədibin oğlu və nəvələri", "Cahana sığmayan şair: İmadəddin Nəsimi", "Cavad Heyət gerçəkliyi", "Əvhədi əsərlərinin türk dilinə tərcüməsi və nəşri məsələləri", "İbrət dəftəri", "Milli şeirin ağsaqqalı", "Mirzə Cəlilin nəvələri tapıldı", "Molla Nəsrəddin" İranda", "Naxçıvanda Məmməd Araz günləri" kimi məqalələri onun Şəhriyar yaradıcılığına, ümumilikdə

isə Cənubi Azərbaycan ədəbiyyatına olan dərin sevgisinin təzahürü, Naxçıvan-Cənubi Azərbaycan elmi əlaqələrinin inkişafındakı xidmətlərinin bariz nümunəsidir. İ.Həbibbəylinin, həmçinin Cənubi Azərbaycanla bağlı olan "Şəhriyar poetikası" kitabının elmi redaktoru, M.Şəhriyarın Azərbaycan dilində yazılan əsərlərinin toplandığı "Əbədiyyət gülüyəm mən" kitabının redaksiya heyətinin üzvü, "Cənubi Azərbaycan şairi Mirzə Əli Möcüz" monoqrafiyasının rəyçisi, "Məşrutə hərəkatı dövrü Azərbaycan ədəbiyyatı" adlı fəlsəfə doktorluğu dissertasiyasının elmi rəhbəri, "Mirzə Əli Möcüz: mühiti, müasirləri və ədəbi irsi" adlı doktorluq dissertasiyasının elmi məsləhətçisi, "Məhəmmədhüseyn Şəhriyar yaradıcılığının təkamülü", "Cənubi Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri (1946-1990-cı illər)" və "Mir Cəfər Pişəvərinin həyatı, mühiti" doktorluq dissertasiyalarının opponenti olması da onun elmi fəaliyyətində Cənubi Azərbaycan məsələsinin yer almasını bir daha sübut edir. Bununla yanaşı, akademik Azərbaycan ədəbiyyatı tarixinin IX cildində Cənubi Azərbaycan ədəbiyyatını aşağıdakı mərhələlər və istiqamətlər üzrə təsnif etmişdir:

1. XIX əsrin birinci yarısı – Cənubi Azərbaycan ədəbiyyatının formalaşması dövrü
2. XIX əsrin ikinci yarısı – Cənubi Azərbaycanda didaktik-maarifçi ədəbiyyat
3. Cənubi Azərbaycanda milli azadlıq uğrunda mübarizə dövrü ədəbiyyatı (1906-1920)
4. Cənubi Azərbaycanda milli müqavimət ədəbiyyatı mərhələsi (1920-1941)
5. Cənubi Azərbaycanda milli-demokratik hərəkat dövrü ədəbiyyatı (1941-1946)
6. İkinci Dünya müharibəsindən sonra Cənubi Azərbaycanda ədəbi proses (1947–1978)
7. İslam inqilabından sonra Cənubi Azərbaycan ədəbiyyatı (1979-cu ildən)
8. Sovet Azərbaycanında Cənubi mühacirət ədəbiyyatı
9. Cənubi Azərbaycan mühacirəti və ədəbiyyat.

Naxçıvan elmi mühitində Azərbaycan tarixi romanının inkişaf yolu, nəzəri-estetik problemləri, ideya-sənətkarlıq məziyyətləri istiqamətində tədqiqatları ilə seçilən ədəbiyyatşünas alim, prof. Yavuz Axundlunun da elmi irsində Cənubi Azərbaycan mövzulu elmi araşdırmaları mühüm yer tutur. Elmi fəaliyyətə 1959-cu ildə Bakı Dövlət Universitetinin dissertantı kimi başlayan Y.Axundlu burada tanınmış alim Fəridə Vəzirovanın rəhbərliyi ilə "M.S.Ordubadinin "Dumanlı Təbriz" romanı" mövzusunda namizədlik dissertasiyası üzərində işləməyə başlamış və 1964-cü ildə müdafiə edərək Cənubi Azərbaycan həyatını bütün cəhətləri ilə əks etdirən "Dumanlı Təbriz" əsərinin sistemli və hərtərəfli tədqiqinə nail olmuşdur. Alim sonrakı illərdə də bu istiqamətdə araşdırmalarını davam etdirmiş, 1997-ci ildə nəşr olunmuş "Məmməd Səid Ordubadi" monoqrafiyasında Ordubadinin həyatının Cənubi Azərbaycanla bağlı məqamlarını, bu mövzuda qələmə aldığı şeir, felyeton, dram və romanlarını əsaslı fakt və arxiv materiallarına əsaslanaraq təhlil və tədqiq etmişdir. "Dumanlı Təbriz" romanının mövzusu, ideyası, surətlər aləmi, sənətkarlıq xüsusiyyətləri haqqında əhəmiyyətli elmi mülahizələrini irəli sürən alim Cənubi Azərbaycandakı milli-azadlıq mübarizəsini təkcə bir dövr kontekstində tədqiq etməmiş, sonrakı illərdə də Cənubi Azərbaycandakı ictimai-siyasi vəziyyəti, bu mövzuda qələmə alınan əsərləri geniş və sistemli şəkildə araşdırmışdır. Tarixi roman janrında cənub mövzusunun 1930-cu illərdən başladığını, onun ən misilsiz nümunəsinin isə "Dumanlı Təbriz" olduğunu vurğulayan Y.Axundlu 1945-ci ildə Seyid Cəfər Pişəvərinin başçılığı ilə milli hökumətin yaradılması, bu illərdəki ictimai-siyasi vəziyyət, şimallı-cənublu qələm sahiblərinin, gənc ədəbi qüvvələrin qarşılıqlı əlaqələri və qələmə alınan əsərlər haqqında ətraflı məlumat vermiş, Abbas Pənahi Makulunun "Səttarxan", "Gizli zindan", "Xiyabani", "Heydər Əmioğlu" və Mirzə İbrahimovun "Gələcək gün" romanlarını tədqiqata cəlb etmişdir. Azərbaycan tarixi romanını mərhələlər və problemlər kontekstində ilk dəfə araşdıran alim elmi fəaliyyətinin bütün dönəmlərində Cənubi Azərbaycan mövzusuna xüsusi həssaslıqla yanaşmış, bu məsələ tədqiqatlarının başlıca obyektlərindən birinə çevrilmişdir. Y.Axundlunun, həmçinin bir sıra elmi, publisistik yazıları da Cənubi Azərbaycan məsələsinə həsr olunmuş və bir neçəsi İranda dərc olunmuşdur. Onun "Azərbaycan ədibləri Səttarxan hərəkatı haqqında" adlı məqaləsi "Körpü" jurnalında, "Qanlı sənələr"in ibrət dərsi", "İran səyyahlarının məktublarına həsr olunmuş roman" məqalələri "Varlıq" dərgisində, "Süleyman Rəhimov-100" adlı yazısı "Məhdi-Azadi", "Abbas Pənahi Makulu" yazısı isə "Sovet Naxçıvanı" qəzetlərində dərc olunmuşdur. Alimin 2006-cı ildə "Qarabağ harayı" kitabı İranda ərəb əlifbası ilə nəşr olunmuşdur.

Cənublu ədəbi simaların mühiti, həyatı və ədəbi irsi istiqamətində də Naxçıvan elmi mühitində bir sıra əhəmiyyətli elmi araşdırmalar həyata keçirilmişdir. Ədəbiyyatşünas alim Fərman Xəlilovun fəaliyyəti də bu baxımdan diqqət çəkir. 1982-ci ildə Cənubi Azərbaycan şairi "Mirzə Əli Möcüzün yaradıcılıq yolu" mövzusunda namizədlik dissertasiyası müdafiə edən alim bu istiqamətdəki araşdırmalarını davam etdirmiş, 2007-ci ildə "M.Ə.Möcüz. Biblioqrafiya", 2008-ci ildə "Mirzə Əli Möcüzün əlyazmaları", 2010-cu ildə "Cənubi Azərbaycan şairi Mirzə Əli Möcüz" monoqrafiyaları işıq üzü görmüş, 2011-ci ildə isə "Mirzə Əli Möcüz: mühiti, müasirləri və ədəbi irsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Cənubi Azərbaycan şairi M.Möcüz irsinin hərtərəfli tədqiqi sayəsində möcüzşünas alim kimi dəyərləndirilən F.Xəlilovun çoxsaylı yazıları da bu istiqamətdədir. Onun "Molla Nəsrəddin" ədəbi məktəbi və Möcüz", "Doktor Məhəmməd Tağı Zehtabinin Mirzəli Möcüz haqqında araşdırmaları", "Məhəmmədhüseyn Şəhriyarın Mirzə Əli Möcüzün ədəbi irsinə münasibəti və yaradıcılığında onun ənənələrindən bəhrələnməsi", "Cənubi azərbaycanlı müasirləri Mirzə Əli Möcüz haqqında", "Mirzə Əli Möcüzün Cənubi Azərbaycanda tədqiqinə dair", "Mirzə Əli Möcüzün ailə mühiti və təhsili", "Mirzə Əli Möcüzün "Tərcümeyi-hal"ının mətni ilə bağlı bəzi təhriflər və həqiqətlər", "Mirzə Əli Möcüzün həyatının Şəbüstər mərhələsi (1906-1920)", "Mirzə Əli Möcüzün yazdığı son məktublarından biri haqqında", "Cənubi Azərbaycan şairi Mirzə Əli Möcüzün ifşa üsulları və tənqid hədəfləri", "Əliağa Vahidin Mirzə Əli Möcüzə həsr etdiyi bir poema haqqında", "Mirzə Əli Möcüzün şeir dili haqqında bəzi qeydlər", "Mirzə Əli Möcüzün tədqiq tarixindən", "Mirzə Əli Möcüzün Mirzə Ələkbər Sabirlə əlaqələri haqqında", "Mirzə Əli Möcüzün şeirləri xarici dillərdə", "Mirzə Əli Möcüzün yeni Təbriz nəşrləri", "Mirzə Əli Möcüz və kəndli həyatı" kimi məqalələrində Möcüzün həyatı, ədəbi irsi müxtəlif aspektlərdən araşdırılmış və əhəmiyyətli elmi nəticələr əldə edilmişdir. Alim müxtəlif jurnallarda dərc etdirdiyi məqalələri ilə yanaşı, mətbuatda da Cənubi Azərbaycan mövzulu yazıları ilə çıxış etmişdir. "Məşrutə dövrü ədəbiyyatı", "Qiymətli antologiya", "Nəşri gözlənilən kitab", "Təbriz görüşləri", "M.Ə.Möcüzün yeni Təbriz nəşrləri" kimi yazıları bu qəbildəndir. Alim, həmçinin Cənubi Azərbaycan tamaşaçıları üçün nəzərdə tutulan "Ayrılıq" və "Axtarış" verilişlərinə göndərilən məktubları tərcümə etməklə bərabər, bu verilişin fəal iştirakçılarından biri olmuşdur. Mətbuatda, elmi toplu və jurnallarda Cənubi Azərbaycanın Naxçıvan ədəbi mühiti üçün yeni olan bir çox nümayəndələri haqqında məqalələrlə çıxış etmiş, Azərbaycan klassiklərinin bir çoxunun kitablarını Təbriz Mərkəzi Kitabxanasına hədiyyə etmişdir. Cənubi Azərbaycanın Naxçıvanla ədəbi-mədəni, elmi əlaqələrinin bu gün də davam etdirilməsində alimin xidmətləri böyükdür.

Cənubda yaşayan söz sənətkarlarının yaradıcılığının tədqiqini professor Hüseyn Həşimlinin elmi araşdırmalarında da görmək mümkündür. Alim Cənubi Azərbaycandan olan nakam taleli şairimiz Səid Səlmasi haqqında ilk sistemli və əhatəli tədqiqat işinin müəllifi kimi bir sıra elmi araşdırmalarını bu mövzuya həsr etmişdir. Onun "Fədakar vətəndaş, novator şair", "Nəzirə sonetə nəzirə, yaxud Əhməd Kamal və Səid Səlmasi", "Romantik şair Səid Səlmasinin təvəllüd tarixi və tərcümeyi-halının Bakı dövrü barədə bəzi qeydlər", "Səid Səlmasinin publisistikası", "Müasirləri Səid Səlmasi haqqında", "Nazire soneye nazire, yahud Ahmet Kemal ve Seit Selmasi" elmi məqalələri bu istiqamətdədir. Məqalələrində S.Səlmasinin ömür yolu, ədəbi və publisistik əsərləri, müasirlərinin ona münasibəti konkret faktlarla araşdırılaraq ədəbi-elmi ictimaiyyətə təqdim olunmuşdur. H.Həşimli bu istiqamətdəki tədqiqatlarını daha bitkin formada 2013-cü ildə "Səid Səlmasi" monoqrafiyasının nəşri ilə yekunlaşdırmış, "ötən əsrin əvvəllərində Güney Azərbaycanda elmin, maarifin, mədəniyyətin tərəqqisi, yüksəlişi istiqamətində çoxşaxəli tədbirlər həyata keçirmiş, məktəblər, mətbəələr açmış, mətbuat orqanları nəşr etdirmiş, həmçinin Səttarxan hərəkatında, hürriyyət uğrunda mübarizələrdə çox yaxından iştirak etmiş, fədai şair kimi şöhrətlənmiş" [2, s.163] S.Səlmasinin həyat və yaradıcılıq yolunu zəngin materiallar əsasında ilk dəfə sistemli tədqiqata cəlb etmişdir. Şair-publisist, azadlıq mücahidi Səid Səlmasi haqqında yazılan monoqrafiyanın elmi dəyərini artıran ən mühüm cəhət isə müəllifinin də qeyd etdiyi kimi "kitab hazırlanarkən mövzu ilə əlaqədar son yüz ildən artıq dövrün mətbuat materialları, ədəbi, elmi qaynaqları araşdırılmış, Azərbaycanla yanaşı, İran, Türkiyə və Rusiyada nəşr olunmuş müvafiq əsərlərə müraciət olunmuş, bir sıra məsələlər ilk dəfə aydınlaşdırılmış, yaxud dəqiqləşdirilmişdir" [2, s.5-6]. Monoqrafiyanın

"Məslək fədaisinin ömür səhifələri, mühiti, müasirləri" bölməsində S.Səlmasinin təvəllüd tarixi, doğulduğu yer, ailə və təhsil mühiti, mühitdəki əlaqələri, səyahətləri, maarifçi kimi fəaliyyəti, Səttarxan hərəkatında iştirakı, siyasi-inqilabi fəaliyyəti və əlaqələri, ölümü ilə bağlı məqamlar, müasirlərinin onun haqqındakı fikirləri konkret qaynaqlar əsasında geniş şərh olunmuş, onun ömür yolu ilə bağlı əksər qaranlıq məqamlara aydınlıq gətirilmişdir. Monoqrafiyada S.Səlmasinin yaradıcılığı da geniş təhlil olunmuşdur. "Romantik şairin lirikası" bölməsində şairin ilk qələm təcrübələri, inqilabi ruhlu şeirlərinin təhlili yer almış, xüsusilə də Türkiyə və Rusiya vasitəsilə Avropa ənənələri ilə tanışlığı nəticəsində sonet janrının Azərbaycan ədəbiyyatında ilk nümunələrini yaratması və ədəbiyyatımızın "Şərq-Qərb kontekstində zənginləşməsində, o cümlədən janr-üslub baxımından təkamülü və novatorluğunda onun özünəməxsus xidmətləri" [2, s.95] geniş şərh olunmuşdur. Alim S.Səlmasini Azərbaycan ədəbiyyatında Avropa poetik ənənələrinə müraciət edən, Avropa poeziyasına xas olan qapalı qafiyə sistemini sınaqdan çıxaran, şeirin bədii strukturunda anjambemandan istifadə edən ilk şairlərimizdən biri kimi təqdim etmiş və bunu konkret nümunələr, mənbələr, faktlar əsasında elmi tədqiqinə nail olmuşdur. H.Həşimli, həmçinin S.Səlmasinin bədii əsərləri ilə yanaşı, publisistikasını, müxtəlif qəzet və jurnallardakı fəaliyyətini də əhatəli təhlil etmiş, müasirlərinin Səlmasi haqqında yazdıqları məqalələri və sənətkarın şeirlərindən nümunələri də oxuculara təqdim etmişdir. Alim Naxçıvan-Cənubi Azərbaycan əlaqələrinin inkişafı istiqamətində də səylə çalışmış, Cənubi Azərbaycanda nəşr olunan "Körpü" jurnalında məqalə dərc etdirməklə bərabər, Naxçıvan Dövlət Universitetində 2016-cı ildə keçirilən "Şəhriyar yaradıcılığında müasirlik" adlı konfransda "Məhəmmədhüseyn Şəhriyar və klassik Azərbaycan ədəbiyyatı" məruzəsi ilə çıxış etmişdir.

Naxçıvan elmi mühitinin tanınmış nümayəndələrindən olan professor Əsgər Qədimovun da elmi yaradıcılığının mühüm qolunu Cənubi Azərbaycanla bağlı araşdırmaları təşkil edir. Alim Naxçıvanın Cənubi Azərbaycanla ədəbi-mədəni əlaqələrinin inkişafında mühüm rol oynayan, 1998-ci ildə Təbrizdə əvvəlcə qəzet, sonra isə jurnal formasında dərc olunan "Körpü"nün müxtəlif illərdə müxbiri kimi fəaliyyət göstərmiş, müxtəlif məzmunlu məqalələrlə jurnalın səhifələrində çıxış etmişdir. Naxçıvan ədəbi-elmi mühitinin bir çox nümayəndələrinin şeirlərinin, məqalələrinin jurnalda dərc olunmasında, Cənubi Azərbaycan oxucusunun Naxçıvan ədəbi mühitinin nümayəndələri və onların əsərləri ilə tanışlığında alimin xidmətləri böyükdür. Onun "Qüdsi Vənəndinin gəraylı və qoşmaları", "Bilqamıs dastanı və Azərbaycan türklərinin folkloru", "Kəblə Nəsir", "XIX əsr Ordubad ədəbi mühitində tənqidi-realist ədəbiyyat", "Kitablar aləmində", "Fəqir Ordubadinin yaradıcılığında aşıq şeiri üslubu", "XIX əsr Ordubad şairlərinin lirikasında Sədi, Hafiz və Xəyyam ənənələri", "Füzuli ədəbi məktəbinin görkəmli davamçısı", "Aşıq Abbas Dəhri", "Məhəmməd Tağı Sidqinin maarifçi şeirləri" kimi məqalələri Cənubi Azərbaycanda çıxan "Körpü", "Varlıq", "Qozariş", "Yağış" jurnallarında dərc olunmuş, Salik Ordubadinin əlyazma divanının Azərbaycan və fars dillərində əski əlifba ilə tərtibi və nəşri də Ə.Qədimov tərəfindən Təbrizdə həyata keçirilmişdir. Alim, həmçinin Güney Azərbaycan şairi Hacı Rza Sərraf Təbrizinin vəfatının 100 illiyinə həsr olunmuş Təbrizdə və Bakıda keçirilən konfransda "XIX əsr Ordubad ədəbi mühitində lirikanın dini qaynaqları" mövzusunda çıxış etmişdir. Ə.Qədimov Cənub mövzusunda araşdırmalarını bu gün də davam etdirir. Belə ki, alimin "Təbriz mətbuatı tarixindən: "Dədə Qorqud" və "Koroğlu" jurnalları ədəbi-tarixi yaddaşın işığında" monoqrafiyasında İran İslam inqilabının qələbəsindən sonra Təbrizdə doğma dilimizdə nəşr olunan "Dədə Qorqud" və "Koroğlu" jurnallarının Azərbaycan xalqının milli mənafeyinin, dilinin, folklorunun, ədəbiyyatının, mədəniyyətinin təbliği sahəsində gördüyü işlər ilk dəfə elmi tədqiqat predmetinə çevrilmiş, hər iki jurnalın nəşr tarixi, ideya-siyasi və ədəbi istiqaməti, jurnallarda yer alan Azərbaycan ədəbiyyatı məsələləri dövr, mövzu, janr baxımdan qruplaşdırılmış və əhəmiyyətli elmi nəticələr əldə edilmişdir. Azərbaycan xalqının, xüsusilə də Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın milli ruhda tərbiyələnməsində, dilimizin, ədəbiyyatımızın, mədəniyyətimizin təbliğində əhəmiyyətli rolu olan hər iki jurnal haqqında yazılmış monoqrafiya ədəbiyyat və mətbuat tariximiz üçün qiymətli tədqiqat əsəridir.

İran İslam inqilabından sonra 1979-cu ilin aprelində Təbrizdə nəşr olunan jurnallardan biri də "Varlıq" olmuşdur. Azərbaycan ədəbiyyatşünaslığında bu dərgi haqqında çox yazılmış, müxtə-

lif istiqamətlərdə elmi araşdırmalar həyata keçirilmişdir. Naxçıvan elmi mühitinin nümayəndələrindən olan Nəzakət İsmayılovanın da elmi yaradıcılığında "Varlıq" jurnalı və bu jurnalın yarandığı tarixi şərait, inkişaf yolu, ədəbiyyat və ədəbiyyatşünaslıq örnəkləri zəngin materiallar, faktlar əsasında araşdırılmışdır. Hələ 1999-cu ildə "Varlıq" dərgisində Şimali Azərbaycan ədəbiyyatının araşdırılması (1979-1995-ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə edən N.İsmayılovanın sonrakı araşdırmaları da bu istiqamətdədir. Alimin "Varlıq" jurnalı və Azərbaycan ədəbiyyatı (1979-1995-ci illər)", "Cənubi Azərbaycan ədəbiyyatı müasir mərhələdə yaxud "Varlıq" ədəbi məktəbinin nümayəndələri" monoqrafiyaları və çoxsaylı elmi, publisistik yazıları bu mövzuda qələmə alınmış, "Azərbaycan uşaq ədəbiyyatının tədrisi prosesində Cənub mövzusunun öyrədilməsi" adlı metodik vəsaiti isə 2006-cı ildə nəşr olunmuşdur. Onun "Heyət ailəsi və Naxçıvan", "Varlıq" dərgisi Naxçıvanda tədqiq edildi", "Varlıq" dərgisinin tədqiqatçıları", "Varlıq" jurnalının yarandığı tarixi şərait və ana dili", "Uzunömürlü dərgi", "Ustad alim H.Nitqi və "Varlıq" dərgisi", "Varlıq"ın varlığı uğurlu bir hadisədir", "Varlıq" dərgisi və onun ədəbi istiqaməti", "Varlıq"ın uğurları", "Varlıq" jurnalı Dədə Qorqud haqqında", "Əli Kəmalinin elmi tədqiqatları", "Varlıq" jurnalı varlığını tanıtdı", "Böyük alim Əli Kəmalinin irsi və tədqiqatları", "Varlıq" dərgisində Dədə Qorqud dastanlarının tədqiqi məsələləri", "Şair Savalan haqqında", "Cənubi Azərbaycanda folklor nümunələrinin tədqiqi haqqında", "Səməd Behrənginin pedaqoji fəaliyyəti", "Böyük mütəfəkkir Həmid Nitqinin çoxcəhətli yaradıcılığı", "Mədəni irsimizin güney qolu istiqamətində öyrənilməsi", "İran Azərbaycanında folklorumuzun tədqiqatçıları", "Güney ədəbiyyatı istiqamətində mədəni irsimizin qorunması", "Şəhriyarın "Səhəndiyyə" poemasının əsas ideyası" və başqa kitab, jurnal, toplu və qəzet məqalələrində Cənubi Azərbaycanda mətbuat, cənublu şair, yazıçı və alimlərin həyat və yaradıcılığı müxtəlif istiqamətlərdə araşdırılmış, yazıların əksəriyyəti "Varlıq" dərgisində, bir qismi isə ölkədaxili və xaricdəki nüfuzlu jurnal və qəzet səhifələrində dərc olunmuşdur.

Naxçıvan ədəbi-elmi mühitinin tanınmış nümayəndəsi Xanəli Kərimlinin də elmi-pedaqoji yaradıcılığında Cənubi Azərbaycan əsas mövzulardandır. Onun "Savalan çağırır", "Cənubi Azərbaycan demokratik ədəbiyyatının ilk addımları", "Tarixi romanlar müəllifi (Pənahi Makulu haqqında)", "Səməd Behrəngi yaradıcılığında ictimai motivlər", "Ali məktəblərdə Cənubi Azərbaycan ədəbiyyatının tədrisi" adlı elmi məqalələri, "Zehtabi bu gün də var", "Fəthi Xoşginabi hekayələrində vətənpərvərlik" adlı publisistik yazıları müxtəlif qəzet və jurnal səhifələrində dərc olunmuş, hər birində Cənubi Azərbaycan məsələsi müxtəlif istiqamətlərdə tədqiq olunmuş, Cənubi Azərbaycandakı ictimai-siyasi vəziyyət, burada formalaşan ədəbiyyata təsir edən amillər, demokratik cənub nəsrinin yaranması və inkişafı, nümayəndələri haqqında əhəmiyyətli elmi təhlillər aparılmışdır. X.Kərimlinin Cənubi Azərbaycan ədəbiyyatına marağı hələ gənclik illərindən başlamışdır. Bu həvəs sayəsində 1978-ci ildə Azərbaycan SSRİ Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində professor Həmid Məmmədzadənin rəhbərliyi ilə "Cənubi Azərbaycan demokratik ədəbiyyatında hekayə janrının inkişafı (1941-1970)" mövzusunda namizədlik dissertasiyası üzərində işləməyə başlamış, 1987-ci ildə isə uğurla müdafiə etmişdir. Dissertasiya "cənubdakı soydaşlarımızın nəsr yaradıcılığına həsr olunmuş birinci elmi-tədqiqat işi" [1, s.9], Cənubi Azərbaycan demokratik ədəbiyyatının otuz illik bir dövrünü elmi, ədəbi aspektdən araşdıran çox dəyərli elmi-tədqiqat əsəridir. X.Kərimlinin pedaqoji fəaliyyətinin də əsasında Cənubi Azərbaycan məsələsi, gənclərin Azərbaycanın milli-mənəvi bütövlüyü ruhunda tərbiyələnməsi və bu istiqamətdə ali və orta məktəblərdə gedən təlim proseslərinin təhlil və tədqiqi dayanır. Alim "Ali və orta ümumtəhsil məktəblərində Cənubi Azərbaycan ədəbiyyatının tədrisi" metodik vəsaiti ilə bu mövzuya olan həssas münasibətini ortaya qoymuş, orta və ali məktəblərdə Cənubi Azərbaycan ədəbiyyatının tədrisinin ümumi vəziyyəti, üstün və nöqsanlı cəhətlərini nəzərdən keçirmiş, irad və tövsiyələrini, bu məsələnin tədris prosesində əks olunmasının əhəmiyyətini geniş şərh etmişdir. Bu vəsait orta ümumtəhsil və ali məktəblərdə Cənubi Azərbaycan ədəbiyyatının tədrisi məsələlərinə həsr olunan ilk əsər olmaqla bərabər, alimin illərlə apardığı araşdırmalarının da məntiqi nəticəsidir.

Naxçıvan elmi mühitində aparılan Cənubi Azərbaycana aid elmi araşdırmalar sırasında Cənubi Azərbaycanda dil problemi mühüm yer tutur. Dilçi alim Qalibə Hacıyeva Cənubi Azərbay-

canla bağlı araşdırmalarını əsasən Azərbaycan dilinin cənub qrupuna aid edilən Naxçıvan qrupu şivələrində çağdaş türk dilləri ilə eyni xüsusiyyətlərə malik ortaq dialektal əlamətlərin müqayisəli tədqiqinə yönəltmiş, tarixən eyni soykökə malik türklərin dialekt leksikasının ən qədim qatını Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolu şivələrinin müqayisəli tədqiqi, hər üç bölgənin dialekt və şivələrinin fonetik, leksik-semantik və morfoloji xüsusiyyətlərinin ortaq və fərqli cəhətlərinin geniş şərhi əsasında araşdırmışdır. Alimin Cənubi Azərbaycan toponimlərinin tədqiqinə həsr etdiyi "Cənubi Azərbaycan toponimləri" monoqrafiyasında bu bölgə üzrə aparılan toponimik araşdırmaların xalqımızın vahid mənşə birliyinin təsdiqində, tariximizin bəzi mübahisəli məsələlərinin aydınlaşdırılmasındakı əhəmiyyəti vurğulanmış, toponimlərin leksik-semantik və qrammatik xüsusiyyətləri geniş şərh olunaraq ilk dəfə sistemli tədqiqata cəlb olunmuşdur. Q.Hacıyevanın "Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolu şivələrinin morfoloji xüsusiyyətləri", "Azərbaycan dilinin Naxçıvan qrupu şivələrinin Güney Azərbaycan və Şərqi Anadolu şivələri ilə fonetik və leksik müqayisəsi" monoqrafiyalarında Azərbaycan dilçiliyinin Naxçıvan qrupu şivələri Güney Azərbaycan, Şərqi Anadolu və digər çağdaş türk dilləri ilə müqayisəli şəkildə ilk dəfə ümumtürkoloji müstəvidə tədqiqata cəlb edilmişdir. Alimin "Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolunun ortaq folkloru və etnoqrafik mədəniyyəti", "Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolu folklorunda ortaq dialekt xüsusiyyətləri", "Güney Azerbaycanda Fars Dili ve Diyalektlerine Uyğunlaştırılmış Gedim Türk Toponimleri", "Güney Azərbaycan dialektlərinin tarixi fonetik xüsusiyyətlərinin Naxçıvan qrupu şivələri ilə müqayisəsi", "Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolu dialektlərində tarixi qrammatik formalar", "Nahçıvan ve Doğu Anadolu ağızlarında eski Sumercenin izleri" və başqa məqalələri də bu istiqamətdə qələmə alınmışdır.

Naxçıvan teatrının yaranması və inkişafı haqqında çoxsaylı elmi araşdırmaların müəllifi sənətşünas alim Əli Qəhrəmanovun da elmi yaradıcılığında Cənubi Azərbaycanla bağlı elmi tədqiqatlara rast gəlmək mümkündür. Onun "Böyükxan Naxçıvanski və Təbriz teatrı", "Naxçıvan teatrının baş rejissoru Səməd Mövləvinin yaradıcılıq yolu" adlı elmi məqalələrində Naxçıvanın Cənubi Azərbaycanla olan teatr əlaqələrindən, hər iki tayda yaşayan və teatr sənətinin inkişafında müstəsna rolu olan aktyor-rejissorların fəaliyyətindən bəhs edilir. Müəllif bu istiqamətdəki araşdırmalarını 2019-cu ildə nəşr olunmuş "Təbriz teatrı və Böyükxan Naxçıvanski" monoqrafiyası ilə yekunlaşdırmışdır. Bir sıra arxiv sənədləri, Naxçıvan teatr tarixini əks etdirən mənbələr əsasında qələmə alınan monoqrafiyada Cənubi Azərbaycandakı ədəbi-mədəni mühit, Şimali Azərbaycan aktyorlarının Təbrizdəki fəaliyyətləri və burada fəaliyyət göstərən əsas teatr dəstələri, Şimali və Cənubi Azərbaycan mədəni əlaqələri, Təbriz Azərbaycan Dövlət Dram Teatrı, Təbriz teatrının görkəmli sənətkarları haqqında əhəmiyyətli elmi təhlillər aparılmış, xüsusilə də naxçıvanlı teatr təşkilatçısı Böyükxan Naxçıvanlının ömür və sənət yolunun Naxçıvan və Təbrizlə bağlı məqamları, hər iki bölgədə teatr sənətinin inkişafındakı xidmətləri tədqiq olunmuşdur. Monoqrafiyanın Naxçıvan-Cənubi Azərbaycan mədəni əlaqələrinin hər zaman mövcudluğunu konkret faktlar əsasında göstərən mənbə kimi də əhəmiyyəti böyükdür.

## Nəticə / *Conclusion*

Nəticə olaraq belə qənaətə gələ bilərik ki, Naxçıvan-Cənubi Azərbaycan arasında əlaqələrin inkişafı elmi mühitə də öz təsirini göstərmiş, çoxsaylı elmi məqalələr, kitab və monoqrafiyalar qələmə alınmış, elm adamlarımızın bu istiqamətdəki fəaliyyəti sayəsində əlaqələrimiz daha da genişlənmişdir. Bu istiqamətdə aparılan tədqiqat işlərində tutarlı elmi təhlillər əsasında Cənubi Azərbaycan filologiyasının bir sıra məsələləri tədqiq olunmuş, ədəbiyyat, mətbuat və sənətşünaslıq tariximiz milli-mənəvi bütövlük, vahid Azərbaycan ideyası işığında qələmə alınan araşdırmalarla zənginləşdirilmişdir.

## Ədəbiyyat / *References*

1. Bəşirov S. Xanəli Kərimli: Bir ömrün nağılı. Bakı: Qanun, 2011.
2. Həşimli H. Səid Səlmasi. Bakı: Elm və təhsil, 2013.

## Тема Южного Азербайджана в научной среде Нахчывана

**Сахаб Алиева**
Нахчыванское Отделение НАНА. Азербайджан.
E-mail: sahabaliyeva89@gmail.com

**Резюме.** В статье всесторонне изучена тема Южного Азербайджана в научной среде Нахчывана, также исследованы научные статьи, книги и монографии, написанные в этом направлении. Было отмечено, что основное направление исследований Южного Азербайджана в научной среде Нахчывана было уделено вопросам, связанным со средой, бытом и наследием литературных деятелей, печатью Южного Азербайджана, с диалектами, топонимами, характерными южной ветви азербайджанского языка, и их сравнительным анализом, с преподаванием южно-азербайджанской литературы, также были получены значительные научные результаты. Развитие отношений между Нахчываном и Южным Азербайджаном также оказало влияние на научную среду, были написаны многочисленные научные статьи, книги и монографии, и эти отношения еще более расширились благодаря деятельности наших ученых в этом направлении. В научно-исследовательских работах в этом направлении на основе веских научных анализов изучен ряд вопросов филологии Южного Азербайджана, а история литературы, печати и искусствоведения обогащена исследованиями, написанными в свете идей национально-духовной целостности и единого Азербайджана.
**Ключевые слова:** Нахчыван, Южный Азербайджан, научная среда, национально-духовная целостность, азербайджанство